Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



# Şanlı vətənin qəhrəman övladı Əhməd Cavad

**Əhməd Cavadın 125 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, mks-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Şanlı vətənin qəhrəman övladı Əhməd Cavad”** metodik vəsait / tərt.ed. A.Əliyeva; red. S. Məlikzadə; ix. red. və burax. məsul Ş. Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017. - 50 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Soranlara, mən bu yurdun
Anlatayım nəsiyəm:
Mən çeynənən bu ölkənin
Haqq-bağıran səsiyəm.

*Əhməd Cavad*

Qasırğalar gələndə təkcə güllər, çiçəklər sınıb tökülmür. Həm də qollu-budaqlı ağaclar parçalanır, yarılır, yıxılır. 20-ci illərin dalğaları elə-belə dalğalardan deyildi. O hər şeyi qasırğa gücü ilə dağıdıb, uçurdu. Amma təbiətin də öz qanunauyğunluqları var. Heç nə izsiz, tozsuz qalmır. Kökü torpaqlardan su içib başı buludlara söykənən möhtəşəm ağaclar nə qədər qasırğa görsə də, tufanlarla üzləşsə də yaşayır. Neçə-neçə dəyərli insanın ömrünə balta çalmış, həyatını zülmə döndərmiş 1937-ci ilin qara tufanının qurbanlarından biri də Əhməd Cavad olmuşdur. O Əhməd Cavad ki, adı çəkilən kimi bu gün dilimizin əzbəri, ruhumuzun qidası olan himnimiz qeyri-ixtiyari olaraq səslənir. 20-ci illərin dalğaları Əhməd Cavadı bir şair kimi də, bir vətəndaş kimi də sahillərdən sahillərə, qayalardan qayalara çırpmaq, əzmək istəmişdi. İndi üstündən uzun illər dolandıqdan sonra adam nə o dalğaların gücünə, nə o qasırğanın amansız rəftarına inanmaq istəmir. Çünki vaxt hər şeyi yerbəyer edir. Əhməd Cavad indi dalğalardan da, tufanlardan da özü qədər, yaradıcılığı və şəxsi qüdrəti qədər ucada dayanır. Arxivləri vərəqləyib keçmişə qayıtdıqca istər-istəməz adamın ürəyindən gizli-gizli sızıltılar keçir. Varlığında bir üşütmə qopur. Bir insana nə qədər təqiblər edilər, nə qədər hiylələr qurularmış?..

Ədəbiyyatımızda şair, müəllim, vətəndaş, içtimai-siyasi xadim, publisist, jurnalist, tərcüməçi kimi tanınan Əhməd Cavadın bir sıra əsərləri, xüsusilə də Azərbaycanın dövlət himni, "Çırpınırdın Qara dəniz", (yaxud "Yol ver türkün bayrağına"), "Göy göl" və digər şeirləri dillər əzbəridir. Onun adı geniş oxucu kütləsi üçün çox əzizdir. Bütün fəaliyyəti, bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli şairimizin, talesiz Əhməd Cavadın keçdiyi həyat yolunu oxuculara çatdırmaq və eyni zamanda böyük şairin 125 illik yubileyi münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Əhməd Cavad yanğısı"* adlanır və Əhməd Cavadın həyat və yaradıcılığından bəhs edir. II hissədə isə *"Salam Türkün bayrağına"* adlanır və Əhməd Cavad yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Yaradıcılığı

Cümhuriyyət deyilən zaman hamıdan əvvəl Əhməd Cavad yada düşür. Üçrəngli poeziya bədii yaddaşa ilk öncə məhz onun qələmi ilə həkk olunmuşdur. Milli oyanış, xalq hərəkatı, türk xalqlarının birliyinə çağırış, xalqın yaddaşına qayıdış kimi duyğular Əhməd Cavad şeirlərinin ruhuna hopmuşdur. Şairin yaradıcılığında Azərbaycan, Qafqaz, Turan, Türk dünyası obrazı qabarıq verilmişdir. Əhməd Cavad (Cavad Məmmədli oğlu Axundzadə 1892-1937) Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. Kənd məktəbini bitirdikdən sonra təhsilini Gəncədə müsəlman ruhani seminariyasında davam etdirmiş, burada rus, ərəb, fars dillərini mükəmməl öyrənmiş, Hüseyn Cavid və Abdulla Surun tələbəsi olmuşdur. 1910-cu ildən başlayaraq lirik şeirlər və tənqidi məqalələrlə müxtəlif qəzet və jurnallarda iştirak etmişdir. Birinci Dünya Müharibəsi illərində o, rus-türk cəbhəsi xəttində müharibədən zərər çəkmiş dinc

əhaliyə yardım göstərən cəmiyyətin üzvü və katibi olmuş, inqilabdan əvvəl və sovet hakimiyyətinin ilk illərində Gəncədə, Hacıkənddə, Quba rayonunun kənd məktəblərində müəllimlik etmiş və 1926-cı ildə Ali Pedaqoji İnstitutunu bitirmişdir. Onun məşhur "İstiqlal uğrunda şeirlər" kitabı isə 1928-ci ildə İstanbulda buraxılmışdır. Ədəbiyyat cəmiyyətinin katibi (1924-1926), Kənd Təsərrüfatı texnikumunun müəllimi (1929), Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti (1927-1934), həmin institutun dilçilik kafedrasının rəhbəri (1934-1935) vəzifələrində çalışmışdır. Əhməd Cavad 1935-ci ildən ömrünün sonuna kimi "Azərnəşr" in bədii şöbəsində redaktor kimi fəaliyyət göstərmişdir. Əhməd Cavadın poetik əsərləri zərif lirik-romantik üslubu, dil təravəti, realist və demokratik məzmunu, sadəliyi və xəlqiliyi ilə seçilir. Milli tarix, fəlsəfə və mənəviyyatla bağlı elə bir motiv yox idi ki, Əhməd Cavad ona toxunmamış olsun. Təkcə üçrəngli bayrağa aid altı nəğmə yazıb, "Dilimiz" şeirini qələmə alıb, əlifbaya poeziya həsr edib. C.Cabbarlı ilə birgə latın əlifbasını müdafiə edən iki ziyalıdan biri olub. Türklərlə Balkan hərbində iştirak edib. Birinci Dünya Müharibəsində şərq cəbhəsində ermənilərə qarşı vuruşub. Əhməd Cavad Azərbaycan ədəbiyyatı tarixinə görkəmli tərcüməçi kimi də daxil olmuşdur. O, Şekspirin "Otello" pyesini, A.S.Puşkinin "Kapitan qızı", "Tunc atlı", F.Berezovskinin "Ana", M.Qorkinin "Mən necə oxumuşam", "Çocuqluq", T.Şevçenkonun "Kobraz", Fransua Rablenin "Qarqantua və Pantaqruel" əsərlərinin bədii tərcüməsinin müəllifidir. Əhməd Cavadın ilk kitabının adı "Qoşma" idi. Bu kitabda şairin əsasən 1912-1916-cı illərdə qoşduğu qoşmalar toplanmışdır. O, saysız qoşmalar olmaqla bərabər, eyni zamanda "ciddi planda" qələmə aldığı şeirlərində də möhürbənd kimi ya bir iki bayatı, yaxud da bir qoşma parçasından istifadə edərdi. Bunlarla yanaşı, şairin yaradıcılığında "aşıq" və "saz" obrazları

da xüsusi bir yer tutur. Şairin “Kür”, “Pambıq” poemalarının, “Moskva”, “Səsli qız” və s. iri həmcmli əsərlərinin bir neçə yerində mütləq qoşma və bayatıdan istifadə edilir. Poemalarındakı bu parçalar onun əsərlərində kökə bağlılıq, xəlqilik, millilik və başqa əlamətlər bəxş edir. Şairin ayrı-ayrı şeirlərində də bu cəhəti görmək çətinlik törətmir. Əhməd Cavad həbs olunarkən kitabları, əlyazmaları və çoxlu sayda sənədləri özü ilə aparılmış, ailəsi də sürgün edildikdən sonra qapısı möhürlənmişdir. Şairin əlyazmalarının, daha doğrusu, əldə olanların ümumi həcmi 1000 səhifədən artıqdır. Onların çoxu oğurlanmış, talanmışdır. Əhməd Cavadın şeirləri, məqalələri, tərcümələri, “Şəlalə”, “İqbal”, “Açıq söz”, “Yeni iqbal “, “Azərbaycan”, “Qurtuluş” və s. adda nəşr olunan qəzet və jurnallarda dərc edildi. 1910-1937-ci illər arasında onun yaradıcılığı ədəbiyyatımızın, mədəniyyətimizin və tariximizin həqiqi salnaməsidir. Onun “Dalğa” adlı kitabı 1919-cu ildə nəşr olunur. Elə həmin il “Türk dilinin sərf və nəhvi” adlı dərsliyi də çap olunur. Əhməd Cavad fransız, gürcü və kürd dillərini mükəmməl bilirmiş.

Görkəmli şairimiz Əhməd Cavadın anadan olmasının 125 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövrü mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Salam Türkün bayrağına”, “Sən olasan Gülüstan”, “Ölməz şair-Əhməd Cavad”, “Gecə yarısı döyülən qapılar”, “İstiqlal şairinin özü və sözü”, “Azadlıq aşiqinin ömür yolu”,

“Acı taleyin böyük səsi”, “Qəlbi Vətən olan şair”, “Salam türkün bayrağına”, “Əhməd Cavad və “Cəmiyyəti-xeyriyyə””, “Haqqı hayqıran şair-Əhməd Cavad”, “Qəlbi dəniz olan şair”, “Sözə sevdalı-Cavad”, “Əhməd Cavad dünyası”, “Azadlıq carçısı-Əhməd Cavad”, “Millətin yükünü-qəlbində daşıyan şair” , “Əhməd Cavad yanğısı”, “Qəlbi bayraq şairim”, “Dan ulduzu gülüşündən yarandın”, “Sinəsi tufan şair”, “Həm qalib, həm məğlub şair-Əhməd Cavad” və s.





















**Görkəmli şəxslərin Əhməd Cavad haqqında söylədikləri:**

"İntibah"-deyəndə ilkin xatırlanan Nizami olur. "Məhəbbət" deyiləndə birinci Füzulinin adı çəkilir. "Cümhuriyyət" deyəndə yada hamıdan əvvəl Əhməd Cavad düşür.

**Yaşar Qarayev,**
*professor*

Yaradıcılığının elə ilk nümunələrindən söz sərrafı olan, ədəbi-elmi fikir adamlarının diqqətini cəlb edən Əhməd Cavad tezliklə istedadlı şair, alovlu vətəndaş, içtimai xadim, xeyirxah və təəssübkeş insan kimi məşhurlaşaraq milyonların qəlbində özünə yer tapmışdır.

**Alxan Bayramoğlu,**
*filologiya elmləri doktoru*

Hər bir sənətkarın, hər bir insanın xoşbəxtliyi də, bədbəxtliyi də olur. Cavad ona görə xoşbəxt idi ki, tale ona böyük bir istedad, coşğun bir ilham vermişdi. Ona görə bədbəxt idi ki, şairin həyat və fəaliyyəti çəkişmələr, didişmələlər içində məhv olub gedirdi.

**Əli Saləddin,**
*filologiya elmləri doktoru*

Əhməd Cavad bütün bu sarsıntılardan keçmiş, qanı, canı, ruhu ilə itirəcəklərinin-sevgisinin, övladlarının, həyatının-qorxusunu dadmış, ağrısını duymuş, "etiraf şeirləri" ndə belə, həqiqətən yan keçə bilməyən bir şairdir. Həm qalib, həm məğlub şairdir. Onu qalib edən şeirləri idi.

**Nərgiz Cabbarlı,**
*filologiya üzrə fəlsəfə doktoru*

Bənzərsiz və təkrar edilməz şair olan Əhməd Cavad istər lirik, istərsə də siyasi şeirlərində coşğun hisləri eyni dərəcədə saxlamağa müvəffəq olurdu.

**Şəlalə Həsənova,**
*Azərbaycan yazıçılar birliyinin üzvü.*

Əhməd Cavad qələmindən çıxan şeir, sənət nümunələri xalqın çox ağrılarını özündə əks etdirir.

**Solmaz Məmmədbəyli,**
*N.Gəncəvi adına ədəbiyyat muzeyinin işçisi.*

Əhməd Cavad poeziyasını oxuculara çatdırmaq məqsədi ilə kitabxanada ***"Sən olasan Gülüstan"*** adlı *seçilmiş əsərlərinin təhlili* ilə bağlı tədbir keçirilə bilər. Bunun üçün kitabxanaçı oxucuları kitabxanaya cəlb edərək onları şairin yaradıçılığı və kitabları ilə tanış edir. Oxucular onun ayrı adda kitablarını, xüsusi ilə də "Seçilmiş əsərləri" adlı kitabını oxuyub, şeirlərini dərindən mənimsəyirlər. Təyin olunmuş vaxtda oxucular kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbiri açıq elan edən kitabxanaçı hər kəsi salamladıqdan sonra Əhməd Cavadın keşməkeşli ömür yolundan və coşğun yaradıcılığından danışır.

*Kitabxanaçı:* Böyük şair, həyatı və yaradıcılığı bir vəhdətdə olan bütöv şəxsiyyət, təkrarsız pedaqoq, yüksək səviyyəli ziyalı, inqilabçı, içtimai xadim, iti qələmli jurnalist, qüdrətli publisist, məhşur xeyriyyəçi Əhməd ruhani ailəsində dünyaya göz açmışdır. Atası Məhəmmədəli axund, babası isə Cənubi azərbaycanlı müctəhid idi. Ailəsi təbii olaraq hələ kiçik yaşlarından dini savad almasını təmin etməyə çalışmışdı. O, molla yanında təhsil almağa başlamış, ərəb-fars dillərini mənimsəmişdi. Amma hər şey arzuladığı qaydada davam etmir.

Belə ki, Cavad səkkiz yaşında ikən atasını itirir. Bundan sonra anası Yaxşı xanım oğlunu da götürərək Gəncəyə-birinci ərindən olan uşaqlarının yanına getmək məcburiyyətində qalır. O, burada xalça sexinə işə düzəlir. Zərrabi küçəsində yerləşən mənzil kirayələyir və oğlu Cavadla birgə yaşamağa başlayır. Cavadın ögey qardaşları və ailənin yaxın qohumu olan Hüseyn kişininköməkliyi ilə 1906-cı ildə Şah Abbas məscidi nəzdindəki seminariyaya qəbul edilir. Burada əla qiymətlərlə oxuduğuna görə ona, hətta "Xeyriyyə" cəmiyyəti tərəfindən hər ay dinar qızıl pul məbləğində təqaüd də verilir. Əhməd Cavad seminariyada altı il təhsil alır. Orada ona Abdulla Sur, Hüseyn Cavid, İdris Axundzadə kimi ziyalılar dərs deyirlər. 1912-ci ildə təhsilini başa vuran Cavadın mədrəsədə oxuduğu illərdən başlayaraq bədii yaradıcılıqla, daha dəqiq desək şeir yaradıcılığı ilə məşğul olduğu məlumdur. Bu ərəfədə onun qələmə aldığı nümunələr, əsasən, təsirlə yazılmış və ərəb-fars sözləri ilə zəngin qəzəllər, qitələrdən ibarətdir. Əhməd Cavad təhsilini başa vuran kimi-yəni on altı yaşında ikən müəllimlik fəaliyyətinə başlayır. Belə ki, o, 1913-cü ildə Gəncədə Qafqaz Şeyxülislamı Məhəmməd Pişnamazzadəyə imtahan verərək "şərəfli türk və fars dilləri müəllimi" adını alır və Gəncə Qız məktəbində pedoqoji fəaliyyətə başlayır. O, ömrünün otuz ilinə yaxın dövrünü bu sahədə çalışıb, bu sahədə xidmət göstərib. O vaxtlar Maarif naziri olmuş Nəsib bəy Yusifbəylinin ən yaxın köməkçisi, sirdaşı olmuşdur. Müsavatın fəal üzvü kimi Bakı Dövlət Universitetinin və bir çox orta məktəblərin açılmasında yaxından iştirak etmişdir. Yəni Əhməd Cavadın adı tarixə təkcə şairliyi ilə deyil, müəllimlik fəaliyyəti ilə də yazılıb. Bundan başqa, Osmanlı Türkiyəsinə qarşı 1912-ci ildə Balkan yarımadası ətrafında başlanan müharibədə Əhməd Cavad da əqidə dostları İdris Axundzadə, İsa Əlizadə, Əli Əsədulla ilə birlikdə iştirak edib. O, 1912-ci ildə Türkiyə-İstanbula səyahət

edərək bir əlində silah, bir əlində qələm könüllü əsgər kimi döyüşüb. Şair vaxt taparaq məqalə və şeirlərlə orduya əlindən gələn mənəvi köməyi edirdi. Artıq tale insanı seçir və onu istədiyi yerə sürükləyə, ata, aparıb çıxara bilir. Xeyriyyəçilik fəaliyyəti ilə Acarıstana gedib çıxması təkcə Əhməd Cavadın bir şair kimi fəaliyyətinə deyil, şəxsi həyatına da öz təsirini göstərir. Belə ki, o, həyatının sevgisini-Şükriyyəni də Acarıstanda tapır və atasının evlənmələrinə razılığı olmadığından onu Gəncəyə qaçıraraq orada toy edir. Bu nigahdan onların Niyazi, Almaz, Yılmaz, Aydın və Türkay adlı övladları olur. Şükriyyə xanım böyük şair Əhməd Cavadın poeziyasına şeirlərlə iz salır. Elə bir iz ki, heç zaman silinməz...

Bir gülsən, dərmişəm gənclik bağından,
Bir gülü, çiçəyi dərmərəm sənsiz!
Kam aldım ömrümün oğlan çağından
Bir bağa, baxçaya girmərəm sənsiz!

Misraları ilə başlayan "Şükriyyə üçün"şeiri tək şeir kimi deyil, musiqi kimi də müasir dövrün ən maraqlı nümunələrindən birinə çevrilib. "Sən ağlama, mən ağlaram" şeirinə nəzər salaq:

Bən deyən yox, fələk deyən oldusa,
Əsdi yellər gül yanağın soldusa,
Dərd əlindən ala gözlər doldusa,
Sən ağlama, mən ağlayım, gözəlim!

*I iştirakçı:* Bütün bunlar Azərbaycan poeziyasının ən gözəl sevgi şeirləri kimi, hələ uzun illər yaddaşlarda qalacaq, sevgilərə şahidlik edəcək, sevən ürəklərə təskinlik gətirəcək. Əhməd Cavadın adı bütün bu sadalananlardan sonra bir də ADC ilə yanaşı çəkilməsi ilə də tarixə yazılıb. Həm də şərəfli bir iz salıb. Bir də, təbii ki, həm həyatında, həm yaradıcılığında böyük yeri olan müsavat partiyası ilə əlaqəsini də xüsusi vurğulamaq lazımdır. İstedadlı şair Əhməd Cavadın milli ruhlu şeirləri, bu

yaradıcılığın ADC-nin həyatındakı rolu artıq dəfələrlə araşdırılıb. O da bəllidir ki, bu münasibət ADC-nin süqutundan sonra Əhməd Cavadın da bir insan və bir şair kimi məhvinə səbəb oldu. Halbuki onun bütün xəyalları, arzuları bu cümhuriyyət ilə bağlı idi. Qurulan dövlət də, təbliğ olunan ideallar da onun həyatının, təbii ki, eyni zamanda da yaradıcılığının mənasına çevrilmişdi.

Ey Tanrının cənnət uman qulları,
Mən cənnəti bu dünyada bulmuşam.
Aramaqdan bezdiyiniz yolları
Axtarmaqda mən sevdada bulmuşam!

*II iştirakçı:* Şair öz həqiqətini tapmışdı və tapdığı bu həqiqətə cani-könüldən inanırdı. Amma inancı həm də onun məhvinə səbəb oldu. O məhz milli ruhlu şeirlərinə, məhz istiqlal carçısı olduğuna görə sovet dövründə təzyiqlərə, təqiblərə məruz qaldı. O, sovet rejimi qurulduqdan sonra fərqli bölgələrə çəkilsə də, yazdığı şeirlərdə ruhunu öldürməyə, əzməyə, yenilmiş və yenilənmiş kimi göstərməyə çalışsa da, artıq fərmanı verilmişdi, qarşıya qoyulan məqsədə doğru irəlilənməkdə idi. Hər şeiri çıxdıqda hamı sözləşibmiş kimi, mətbuatda tənqidi məqalələrlə çıxış etməyə başlayırdı. Elə bir dövr, elə bir mühit idi ki, sadəcə susmaq, sadəcə dinləmək, kölgəyə çəkilmək, yox olmaq mümkün deyildi. Özü də Əhməd Cavadın aktiv müəllimlik fəaliyyəti də nəzərə alınarsa, bunu mümkünsüz olduğu aydınlaşar. O, yazılarına və siyasi görüşlərinə görə repressiyaya məruz qaldığı dövrə qədər artıq üç dəfə həbs olunmuşdu. İlk dəfə bu 1923-cü ildə olmuşdu. Səbəb isə başqa bir müsavatçı Mirzə Bala Məmmədqluzadənin Türkiyəyə qaçıb getməsinə yardım etməsi idi. İlk dəfəki həbs zamanı olmasa da, sonrakı dindirmələlərdə Əhməd Cavad bu faktı etiraf edərək boynuna alır. Amma taleyin çox maraqlı oyunları olur. Belə ki, o ilk dəfə həbs olunduğu zaman qurtuluşunun səbəbkarı, nə qədər qəribə

də olsa, Mircəfər Bağırov idi. Daha doğrusu, o, Əhməd Cavad və H.Musayev birlikdə hələ 1920-ci ildə Qubanın Xuluq kəndində işləmişdir. Bundan istifadə edən Hüseyn Musayev Mircəfər Bağırovun yanına gedərək Cavadın azad olmasını xahiş edir. Və istəyinə nail ola bilir. Amma bu qurtuluş müvəqqəti idi. Çünki artıq yaddaşlara yazılmış istiqlal şeirindəki səmimiyyət, inanc və etiqad o misraların sahibinin daxilən, mənən öz inamından dönməyəcəyini, bu quruluşa uyuşmayacağını xəbər verirdi. Əslində, elə "etiraf edirəm" sözlərinin söylənildiyi məclislərdə belə Cavad "Mən xəyənatkar deyiləm" sözünü təkrar etməklə özünü müəyyən mənada ələ vermiş olurdu. Bu ifadəni başqa mənada işlədirmiş kimi görünsə də...1920-1925-ci illər arasında Ə.Cavad cəmi 4-5 şeir çap etdirir. Hər halda, özü də anlayırdı ki, onu ilişdirmək üçün pusquda dayananlar var. Əksəriyyəti də öz "qələm yoldaşları". Hər sözü, cümləsi təftiş olunur, hər ifadəsinin altından əks-inqilabi fikirlər, azadlıq yanğısı və həsrəti axtarırdılar.

*III iştirakçı:* Xüsusilə də nəzərə alınsa ki, Əhməd Cavad dövrünün gəncləri arasında sevilən və yaradıcı gəncləri öz "havasına çəkən" bir şair idi, "təhlükə" nin nə qədər böyük olduğu anlaşılar. Beləliklə, 1920-1930-cu illərdə bu yaradıcılıq geninə-boluna təftiş olunmağa başlayır.

Əhməd Cavad yaradıcılığının ilk illərindən etibarən əsərləri M.Ə.Rəsulzadə, A.Sur, A.Şaiq, H.Cavid, M.Müşfiq, S.Hüseyn, X.X.Səbribəyzadə, H. Qarağazadə kimi müəlliflər tərəfindən təhlil və təqdir olunan şairin yaradıcılığı ətrafında qızğın mübahisə və müzakirələr 1920-1930-cu illərə aiddir. Həmin dövrdə, yeni ideloji sistem və elmi-nəzəri prinsiplər dövründə şairin əsərləri sosioloji tələblərlə təhlil edilir, ondan sosializm quruculuğu, kollektivləşmə, sənayeləşmə və s. bu kimi ideyalara xidmət tələb olunurdu. Və o, qismən də olsa, bunun ücün çaba göstərirdi. Digər tərəfdən də iclaslarda, pleniumlarda çıxış

edərək özünə haqq qazandırmağa, ittihamlara cavab verməyə çalışırdı. Bu məsələdə bir incə məqam var: maraqlıdır ki, əslində, mətbuatda, iclaslarda Əhməd Cavadı ittiham üçün söylənilən fikirlər təkrar-təkrar deyilə-deyilə sonda onun öz dilindən çıxarılırdı. O, özünü, öz ruhunu başa salmağa çalışaraq söyləyirdi: "...etiraf etməliyəm ki, qabaqda milli-şovinizm məzmunlu əsərlər yazmışam... Mən köhnə üsul ilə tərbiyə almış bir insanam və özüm də gənc deyiləm... Söz verirəm və çoxdan bəri söz vermişəm ki, yeni ruhda işləyəcəm. Lakin imkan veriniz, yardım ediniz... Milli şair olmağa çalışdım, bir çox parçalar yazdım. Bunu boynuma alıram. Lakin bu gün tarix, həyat bir çox əski mətbuatlara qələm çəkdi ki, milli duyğu da onun içində. Bu gün ümumi bəşəri əhəmiyyəti olan bir hərəkətdən saparaq dar bir çərçivəyə girmək bəşəriyyətlə, yazmış olduğum milli ruhda parçalardan imtinayla gənc dimaqlar üçün onların zərərli olduğunu etiraf edirəm." Bütün bunlar nə idi? Özü-özü ilə aparılan mübarizənin nəticəsimi, yoxsa cismən sağ qalmağa aparan yeganə yolun və yeganə çözümün məhz bu olduğunun dərkimi? Yəqin ki, hər ikisi də vardı... O, vəziyyətdən çıxmağa çalışırdı. Mənən, ruhən bunun belə onu xilas etməyəcəyini anlasa da, yenə də ailəsi, uşaqları, məhv edilməsi üçün hər şey edilən, amma hələ də içində yaşatdığı, ölməyə, can verməyə qoymadığı arzuları, ideyalları naminə çabalayırdı. Amma istedad hər zaman düşmən doğurur. Cavadın da düşmənləri vardı. Onun istedadının məhvindən keçdiyini anlayanlar fəaliyyətdə idilər. Və kim nə deyir-desin, "Ələkçinin qıl verənləri" olan "qələm yoldaşları" olmasaydı, "sapı özümüzdən olan baltalar" olmasaydı, istedada paxıllıq hissi ilə qovrulan istedadsızlar olmasaydı yəqin ki, Əhməd Cavad və onun kimilər belə asanlıqla qurban verilməyəcəkdi. Ya da ən azından bu qədər çox ziyalı qurbanlarımız olmayacaqdı.

*IV İştirakçı:* Onun ən çox müzakirələrə və tənqidi fikirlərə səbəb olan əsərlərindən biri 1925-ci ildə dərc etdirdiyi "Göy göl" şeiridir. Hətta canfəşanlıq edənlərin köməyi ilə şeir tərcümə olunub Moskvaya belə göndərilmişdi. Amma "Göy göl" orada yoxlanılsa da, elə bir siyasi səhv tapılmadığından onu azad etmək məcburiyyətində qalmışdılar. O özü isə bu şeirlə bağlı çıxışında deyirdi: " "Göy göl" də, nə də mətbuatda çıxan başqa yazılarımda bilxassə 1924-cü ildən sonra heç bir siyasi məqsəd tutduğum yoxdur. Şeirimdəki hüzn çocuqluğumdan başlayaraq yazmaqda olduğum parçaların çümləsində olduğunu yoldaşlar da çox gözəl bilir. Bən burada böylə bir hüznün bugünkü ədəbiyyata da xeyirli olduğu deyil, bəndəki hüznün siyasi olmadığını söyləmək istəyirəm". O, "Moskva" şeiri ilə bağlı da bərk qınanılırdı. Cavadın özü də bu şeirin zəif olduğunu çıxışında etiraf etməli olmuşdu. Beləliklə, 1929-cu ildən başlayaraq ta 1937-ci ilə kimi respublika mətbuatında Ə.Cavadın mühakiməsinə həsr olunmuş, onu tənqid və "ifşa" edən müxtəlif yazılar yazılırdı. Əksəriyyəti imkansız yazılmış şeir və məqsədlərlə şair tənqid və təhqir edilirdi. 1928-ci ildə Əhməd Cavad 16 şeirinin Türkiyədə çap olunan "istiqlal məcmuəsi" nə düşməsi isə onu ifşa edənlərin əlinə əsaslı bir bəhanə vermiş oldu.

*V iştirakçı:* Beləliklə, düz iki il davam edən ifşa kampaniyasından sonra böyük şair Ə.Cavad 1930-cu ildə Gəncəyə köçmək məcburiyyətində qaldı. Düz beş il o, Gəncədə yaşayıb-yaradır. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun türk və rus dilləri kafedrasının müdiri, Gəncə Dram Teatrında ədəbi hissə müdiri vəzifələrində işləyir. 1933-cü ildə professor adını alır. Amma Bakı ondan əl çəkmir. 1934-cü ildə şair "Azərnəşr" də işləmək üçün yenidən Bakıya dəvət alır. Və hər şey yenidən başlayır. 1937-ci il, mart ayının 21-də hədəf vurulur. O, "Xalq düşməni" kimi əvvəlcə Şura Yazıçıları Cəmiyyətindən

uzaqlaşdırılır. Daha sonra isə həbs edilir. Dövlət Təhlükəsizliyi Komitəsində Ə.Cavadın 22316 nömrəli "istintaq" işi saxlanılır. Şair 1937-ci il, iyun ayının 4-də Hüseyn Cavid, Mikayıl Müşfiq və Vəli Xuluflu ilə eyni vaxtda həbs edilir. "Məhkəmə həmin ilin oktyabr ayının 12-də başlandı, cəmi 15 dəqiqə davam etdi. 1937-ci il oktyabrın 12-dən 13-nə keçən gecə onu güllələdilər. Məhkəmənin sədri İ.O.Matuleviç, üzvləri İ.M.Zaryanov və C.K.Jiqur idi. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası müttəhimi Azərbaycan cinayət məcəlləsinin 69, 70, 73-cü maddələri ilə ittiham etmişdir. İrəli sürülən ittihamlardan birincisi budur ki, guya şair 1922-ci ildən əks-inqilabçı müsavat hərəkatının iştirakçısı olub, 1936-cı ildən isə o, Azərbaycanda mövcud olan üsyankar təxribatçılıq-terror-diversiya, millətçi təşkilata qoşulur, öz qarşısına guya Sovet hakimiyyətini yıxmaq, Azərbaycanı SSRİ-dən ayırmaq məqsədini qoyur. Məhkəmədə hərbi yurist A.F.Kostyuşko və prokuror N.S. Rovski iştirak etmişlər. Lakin burada müdafiəçilər, yəni vəkillər, şahidlər isə iştirak etməmişlər. Əslində bu məhkəmə "15 dəqiqəlik məhkəmədən" bir gün əvvəl, yəni oktyabrın 11-də keçirilmişdir. Hökm bir gün sonra çıxarılmışdır. Şairə ölüm hökmü- "güllələnmək" kəsilmişdir. Şairin həbsinin səbəbi, taleyinin nə ilə yekunlaşdığı, başına nələr gəldiyi nəinki cəmiyyətə, heç ailəsinə də bildirilmir. Əksəriyyət onu Sibirə sürgün olunmuş zənn etsə də, rəsmi sənədlərdən məlum olur ki, o, 1937-ci il iyun ayının 4-də həbs edilib, heç yerə sürgün edilmədən həmin ilin oktyabr ayının 12-dən 13-nə keçən gecə Bakıda vəhşicəsinə güllələnib. Lakin qısa müddətdən sonra şairə bəraət verilib.

*VI iştirakçı:* Onun şeirləri Azərbaycanımızın bütün bölgələrində dildə-ağızda gəzirdi, ən böyük məclislərdə əzbərdən oxunurdu.

Türküstan yelləri öpüb alnını,
Daha yüksəklərə ucal, bayrağım!..

Bu misralar şairin şeirinin xalq variantıdır. Yeri gəlmişkən Ə.Cavad əksər şeirləri xalqın şifahi yaddaşına keçmişdir. Ayrı-ayrı şəhərlərimizdə, kəndlərimizdə biz onların iz və əlamətlərinə rast gəlrik. Çəkdiyimiz misal da onlardan biridir ki, artıq ən çox oxunan kitablarımızdan birinin səhifələrinə çıxmışdır. Bildiyimiz kimi, həmin misralar Əhməd Cavadda aşağıdakı kimidir:

Türküstan elləri öpüb alnını,
Söyləyir dərdini sana bayrağım!

I aparıcı: Fərq varmı? Əlbəttə, var. Birinci misrada "ellər" yerinə "yellər" işlədilib. İkinci misra heç şairin şeində yoxdur. Xalqımızın bədii təfəkkürü, təxəyyülü, ona qanad verib. Bayrağımızın daha yüksəklərə ucalmasını arzulamışdır. Bununla onu demək istəyirik ki, Əhməd Cavadın hər misrası xalq içərisində zərb-məsəl kimi işlədilirdi.

*VII iştirakçı:* Bu gün ona sadəcə "mübariz istiqlal şairi" deyib keçmək qədər bəsit bir qiymətləndirmə ola bilməz. Yaşanmış bir taleyin, baş vermiş məntiqi və ya qeyri-məntiqi bir sonluğun haqqında o psixoloji yaşantıların dərinliyinə varmadan "qorxmaz, çəkinməz" kimi adi sözlərlə dəyər vermək də yanlışlıqdır. Bu gün Əhməd Cavadın faciəsini anlamaq, dərk etmək üçün o zamana, o mühitə, o qələm "dostlarının" əhatəsinə ehtiyac var. Onun yaşadıqları azğın bir selin cənginə düşüb axmaqda olan insanın yaşantılarına bənzəyir... Sel gəldisə və sən də o axının düz ortasına düşdünsə və üstəgəl çaba göstərdikcə getdikcə daha çox boşluğunu hiss və dərk edirsənsə, özünü, yorğun bədənini yorğun ruhunu axının ixtiyarına buraxmaqdan başqa nə qalır ki, edə biləcəyin, çaba və dönməzliyin işə yaramadığı anlarda məğlubiyyəti etiraf etmək də qəhrəmanlıqdır. Onu qalib edən şeirləri idi. Zamana sinə gərdilər, yaşadılar, qaldılar, bundan sonra da yaşayacaqlar.

Böyük şair Əhməd Cavad yaradıcılığını oxuculara tanıtmaq və şair qələmini sevdirmək üçün kitabxanada ***"Cavad yaradıcılığında Novruz şeirləri"*** adlı *etnoqrafik etüd* keçirilə bilər. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər bu mövzuya uyğun müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar, oxucular və digər qonaqlar səhnə qarşısında əyləşir. Səhnə yaz bayramına uyğun xüsusi dekorasiyalarla bəzədilir. Novruz atributları və novruz xonçaları səhnənin kənarında yer alır. Kosa və Keçəl tədbirin sonuna qədər səhnəni tərk etmir, iştirakçılar ilə birgə bölüşürlər. Onlar öz duzlu, məzəli söhbətləri ilə tədbirə sevinc qatırlar.

*Yaxşı olar ki tədbiri kitabxananın nağıl otağında təşkil edək.*

*Tədbirdə ilk olaraq kitabxanaçı təbiət vurğunu çəfakeş şair, Ə. Cavad haqqında məlumat verir:*

*Kitabxanaçı:* XX əsr ədəbiyyatımızın məlum tarixi kəsimi milli mənəviyyatımızda yalnız repressiya illəri kimi deyil, o tüğyana qurban gedən ziyalı soydaşlarımızın dəyəri və nəhəngliyi ilə yadda qalacaq. Dövrün diqtəsi ilə ədəbi taleləri müştərək olan yazıçı və şairlərin sırasında öz dəsti-xətti, özünəməxsus dünyagörşü, orijinal yaradıcılıq üslubu olan Əhməd Cavadın ömrü kimi əsərləri, irsi də pərən-pərənə düşmüşdür. Bununla belə şair o məşum çağda əlyazmalarından az da olsa, qohumlarına, yaxın dost-tanışa ötürə bilmişdir. Həmin xəzinədən bəzi incilər Əlyazmalar İnstitutunun və Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinin çox dəyərli bəzəyidir. Muzeyin elmi fondunda şairin əlyazmaları, bəzi sənədləri və tərcümələri mühafizə edilir. Bunların içərisində çox qiymətli bir əlyazma-"Şeir dəftəri" xüsusi maraq doğurur. Onu muzeyə mərhum şairin ömür-gün yoldaşı Şükriyyə xanım 1966-

cı ildə təqdim etmişdir. Dəftərin üzü köhnəlmiş və didilmiş qara meşindəndir. 34 solğun, saralmış vərəq meşin üzlüyə yapışdırılmışdır. Gözəl şair Ə.Cavadın öz əli ilə yazdığı bu şeirlər əski əlifba ilədir. Həmin “dəftərin” yeni əlifbaya transliterasiya edib çap etdirmək Əhməd Cavad irsinə böyük ərməğan olardı. Əhməd Cavad ümumtürk mənəviyyatına, ana dilli poeziyamıza və islam mədəniyyətinə, klassik irsə yaxşı bələd idi. Dövrünün qabaqcıl nəzəri-ədəbi fikirləri ilə tanışlıq, ərəb və fars dillərini bilməsi onun dünyagörüşünü, zövqünü formalaşdırmış, qələminə xüsusi vüsət vermişdir...

Yazın gəlişi gözəldir. O öz gəlişi ilə torpağa canlılıq, bolluq, bərəkət, sevinc, fərəh bir sözlə gözəllik gətirir. İnsanların çöhrələri də, qəlbləri də çiçək açır sanki, bəlkə də bu fidan olmuş ağaclarının ilk tumurcuğu, ilk ləçəyidir. Yaz coşgusu, kahkəşanı ilə gözəldir. Məhz buna görə də, gözəllik vurğunu olan şairlər yaza, yaz bayramına çoxlu şeirlər yazmış, baharın gəlişini seirlərdə tərənnüm etmişlər. Təbiət, saz, söz vurğunu Əhməd Cavadın qələmində də yaz özünəməxsusluğu ilə seçilir. Biz yazı, baharı şairin gözləri ilə görür, onun qəlbi ilə duyur, onun vəsv etdiyi bu gözəlliyə bir daha vuruluruq. İstiqlal şairinin alovlu, mübarizəyə, əzmə səsləyən şeirlərinin mövzusu yaz olduqda şairin dili şirinləşir, mülayimləşir, bir sözlə kövrəkləşir. Onun ilğım nəfəsilə, axıcılığı qədər ürəyə, dilə yatan üslubundan, tərzindən süzülüb gələn yaz şeirləri hamı tərəfindən anlaşılır və yadda qalandır. Gəlin, yazı Əhməd Cavad qələmi ilə seyr edək. *(Bu tədbiri əsasən yaz bayramında, yazın gəlişini qeyd etdiyimiz vaxtda keçirə bilərik.)*

*Kitabxanaçının çıxışından sonra ilk iştirakçı səhnəyə yaxınlaşaraq “Çillə şərqisi” şeirini deməyə başlayır.*

Qabağı yazdılar çillənin,
Ömrü azdır çillənin.
Yer bürünür ağ qara,

Təslim olur bahara.
Ağ bayraqlı Qış gedir,
Al bayraqlı Yaz gəlir!
Nağılçılar xoş gedir,
Ozan, aşıq, saz gəlir!
Böyük çillə çıxmamış,
Kiçik çillə gəlməmiş;
Boz Ay çapır atını,
Bilir qışın zatını...

*İkinci iştirakçı əlində rəngbərəng şamlarla səhnəyə yaxınlaşıb üzünü Kosaya tutaraq "Yaza xitab" adlı şeiri deməyə başlayır.*

Novruz çıxıb taxtına,
Güllər düşüb baxtına.
Kosa gəlir qabağa,
Nəzər salır tabağa.
Çörəyi yoxdur Kosanın,
Xörəyi yoxdur Kosanın,
A Kosa, Kosa gəlsənə,
Torbanı doldursana!
Kosa döyür gözünü,
İtiribdir özünü.
Ocaq üstə saç qalıb,
Bütün qışı ac qalıb;
Torbasını uzadır,
Hamı bilir qaydadır.
Kosaya pay verirlər,
Kosaya hay verirlər...

*Üçüncü iştirakçı "Xıdır Nəbi" adlı şeiri qiraətli bir şəkildə söyləməyə başalyır.*

Xıdır Nəbi bölərək
Az ömürlü çilləni,
Çırpır onun üzünə

Tərsinə bu silləni.
Deyir on gün bəsindir,
Qırıb-çatdın aləmi,
Sən qonaqsan, dünyanı
Dağıdarlar beləmi?...

*Daha sonra musiqi sədaları altında dörd iştirakçı səhnəyə daxil olur. Onlar dörd çərşənbə, hava, su, torpaq və od çərşənbələridir. Bunu onların hər birinin geyimindən aydın görmək mümkündür. Əvvəlcə birinci çərşənbə (iştirakçı) öz şeirini deməyə başlayır.*

Açıldı hava,
Qurtardı dava.
Getdi qış,
Gəldi yaz.
Doğdu Günəş,
Bitdi ayaz.
Çölə çıxdıq
Qoyun –quzu
Güldü yenə
Yerin üzü.
Düzlər yenə çiçək açdı,
Günəş qovdu soyuq qaçdı.

*Sonra ikinci çərşənbə (iştirakçı) öz şeirini deməyə başlayır.*

Bulaqların gözü açıq,
Ormanların üzü açıq;
Durnalardır uçub gələn
Qaqqıldaşa-qaqqıldaşa!
Çaylar axır dəryalara
Şaqqıldaşa-şaqqıldaşa.
Duman qalxır göyə doğru
Meşələrin nəzərindən.
Buzlar düşür parça-parça

Şüşələrin üzərindən.
Puçuldayır yavaş-yavaş
Ağacların budaqları.
Mehrdən əsir həzin-həzin
Gül-çiçəyin yarpaqları!
Dərədə sel qıjıldayır,
Şən arılar vızıldayır.
Hər yandan xoş avaz gəlir,
Sular deyir: Yaz.. Yaz gəlir!

*Sonra üçüncü çərşənbə (iştirakçı) öz şeirini demək üçün bir qədər irəli çıxır.*

Torpağa bax, torpağa,
Sanki qalxır ayağa.
Buxarlanır nəfəsi,
Oyanıbdır həvəsi.
Qızıl öküz tərpənir,
Torpaq sanki dillənir:
Çəmənin harda qaldı?
Səmənin harda qaldı?
Getdi qarlı yorğanım,
Gəlsin xalı-xalçalar,
Yollar boyu yoncalar.
Qoy bağ olsun, əkin olsun,
Mənim ana qucağım!
Səpin olsun, biçin olsun,
Gülsün hər bir bucağım!

*Dördüncü çərşənbə (iştirakçı) öz şeirini deməyə başlayır.*

Mən oddan yaranmışam,
Oddur südüm, nəfəsim.
Od rənginə boyanmışam.
Oddur gücüm, oddur səsim!
Taxılım da oddur mənim,
Oddur gülüm, çəmənim!
Qaynar sular canımdır,
Vulkanları qanımındır!
Ömrüm, günüm odda yaşar.
Meyvələrim oda oxşar
Odlar mənim hakimimdir,
Mən odların hakimiyəm!
Babam oddur, anam oddur,
Odur ki, mən od kimiyəm!
Odsuz daşa oxşayardım,
Odsuz sonsuz yaşayardım!

Aydın olsun gözləriniz!
Gəldi bahar gülə-gülə.
Gedən qışdan qalar bir iz
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!

*Sonda "Bahar qızı" səhnəyə çıxıb "Gəldi bahar gülə-gülə" şeirini söyləyir.*

Çıxsın kəfəndən təbiət,
Yaz yağışı böyük nemət.
Qoy olsun yer üzü cənnət
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!

Yaman günün ömrü azdır,
Mövsümlərin gülü yazdır.
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!

Toplayıb bir dəstə çiçək,
Di gəlin məktəbə gedək.
Tənbəlliyə lənət edək,
Gəldi bahar gülə-gülə!
Oldu bahar gülə-gülə!

*Tədbirin sonunda oxucular və qonaqlar iştirakçılara təşəkkərlərini bildirir.*

Əhməd Cavadın yubileyi ilə əlaqədar kitabxanalarda müxtəlif tədbirlər keçirilə bilər. *Belə ki, bunlardan* ***"Haqqın səsi batan deyil"*** adlı *şeir müsabiqəsi* də oxucular tərəfindən sevilən tədbirlərdəndir. Kitabxanaçı ilk öncə şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Əhməd Cavadın həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

*Kitabxanaçı:* Yəqin ki, ulu təbiətin insanlara bəxş etdiyi qismətlərdən ən mühümü təskinlik duyğusudur. Bu duyğu olmasaydı, insan ən dar ən çətin məqamda nə iləsə təskinlik tapmasaydı, yəqin ki, hasqsızlıqlara dözə bilməzdi, bağrı çatlayardı. Qanlı-qadalı 30-cu illərdə necə qüdrətli, azman söz bahadırlarımızı itirdik. Bəs təskinliyimiz nə oldu?-onların gözəl

sözlərinin qüdrəti. Vaxtında, yerində, ürəkdən və gözəl deyilmiş sözü heç cür susdurmaq olmur. İstəyirsən ən amansız cəza tədbirlərinə əl at-dəxli yoxdur-gözəl söz ölümsüzdür, çünki gözəl olduğu qədər də güclüdür, əbədidir-Müşfiqin, Əhməd Cavadın, Hüseyn Cavidin sözü kimi. Bu gün həmin sözlərin ziyasında saflaşırıq, təmizlənirik, o sözlərin sahiblərinə min rəhmət oxuyuruq.

*İlk olaraq birinci işrirakçı "Şükriyyəm üçün" adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.*

Bir gülsən, dərmişəm gənclik bağından,
Bir gülü, çiçəyi dərmərəm sənsiz!
Kam aldım ömrümün oğlan çağından,
Bir bağa, bağçaya girmərəm sənsiz!
Söylə yadındamı Çakva, Batumi?
Ovladın könlümü, çaldın ruhumu!
Kamana dönmüşdü qəlbimin simi,
Hurini, mələyi görmərəm sənsiz!
Nə çoxdur dünyada qənirsiz pəri!
Gözümə görükməz daha heç biri!
O qızıl saçları, ipək telləri
Əl atıb birini hörmərəm sənsiz!
Məndən xoşbəxt varmı dünyada, deyin?
Ey telli yavrusu Süleyman bəyin!
Bəxtim tərlan imiş: yeyindən, yeyin!
Heç kəsə bu bəxti vermərəm sənsiz!
Səninlə gəzərəm eldən-elə mən,
Bataram, çıxaram seldən-selə mən.
Düşsəm də ağıza, dildən-dilə mən,
Yaşaya bilmərəm bir kərəm sənsiz!
Sonatək göllərdə üzsən də mənsiz,

Quş olub göylərdə süzsən də mənsiz;
Sən Əsli qalsan da, dözsən də mənsiz,
Alışıb yanaram mən Kərəm sənsiz!
Şükriyyə taleyim, şükür Xudaya!
Gördüyüm doğrumu, yoxsa pək röya?!
Dolub ürəyimə bu dadlı xülya,
Şirin günlərimi sürmərəm sənsiz!
Əvət, bu sevdanın səfası çoxdur,
Sevdasız həyatın mənası yoxdur!
Gözlərin yıldızdır, kirpiyin oxdur,
Ürək qubar olar – can vərəm sənsiz!..
Şerimin sözüsən, sözün – ahəngi!
Üzündə bərq vurur güllərin rəngi!
Xəyalın, camalın gözəl çələngi!
Ilham yetim qalar, ağıl – kəm sənsiz.

*İkinci iştirakçı səhnəyə yaxınlaşaraq "Qurban olduğum" adlı şeirini deməyə başlayır.*

Bir xeyli zamandır getdi, gəlmədi,
Əhdi peymanına qurban olduğum!
Istədi can verdim, qədir bilmədi,
O şirin canına qurban olduğum!
Dedim: ayrılığa yoxdur tavanım,
Ayrılıb getməsin sərvi-rəvanım!
Bir daha dönməzmi yosma tərlanım,
Adına, sanına qurban olduğum!
(O təmiz qanına qurban olduğum!)
Mən hey göyə baxdım, göy mənə baxdı,
Göylərə baxmaqdan gözlərim axdı!
Şimşək oldu, ancaq bir dəfə baxdı,
Baxdı qurbanına qurban olduğum!
Könül vermək istər bir müjdə yenə,
Sevgili yurdumun gözəllərinə!

Şerimə can verib, göylərdən enə,
O haqq divanına qurban olduğum!
O mənim şerimin ruhu, rəvacı,
Bütün gözəllərin başının tacı!
Bilməzmi ki, onsuz ömrüm çox acı,
Şöhrətü şanına qurban olduğum!
Gözəlliklər yapma, duyğular cansız,
Mənə tən eyləyir hər yetən qansız.
Atılan oxlardan çıx gəl ziyansız,
Namü nişanına qurban olduğum!
Bir gecə yatmışdım qəmli, mükəddər.
Qəlbimi sıxırdı sonsuz fikirlər.
Birdən Günəş doğdu, açıldı səhər,
Baxdı gözlərimə o qumral gözlər!
Səsimə oyandım, bomboş bir otaq,
Dağların qarına dönmüşdü yataq.
Eşqimə, duyğuma yoxdu bir ortaq,
Bu iyi dünyada ixtilat qataq!

*Üçüncü iştirakçı "Gəncədən gəlirəm" adlı şeirini demək üçün səhnədə öz yerini alır.*

Gəncədən gəlirəm, yüküm üzümdü,
Gəncənin əsgəri düzüm, düzümdü.
Bir əmim qızı var, iki gözümdü,
Özgəyə verməərəm, mən özüm allam,
Şirin qadasını canıma sallam!
Gəncədən gəlirəm, yüküm xurmadı,
Gəncənin yolları burma, burmadı.
Gəncədə bir qız var, teli durnadı,
Günəşə sən çıxma, mən çıxım deyir!
Gəncədən gəlirəm, yüküm çiçəkdi,

Gəncənin gülləri ləçək-ləçəkdi.
Gəncədə bir qız var, adı Çiçəkdi,
Quşlara sən uçma, mən uçum deyir!
Gəncədən gəlirəm, malım nə maldı,
Gəncədən aldığım ipəkdi, şaldı.
Gəncədə bir qız var, adı Maraldı,
Ceyrana sən qaçma, mən qaçım deyir!
Gəncədən gəlirəm, yüküm xınadı,
Könlüm dəli quşu ona qonadı.
Gəncədə bir qız var, adı Sonadı,
Sulara sən axma, mən axım deyir!
Gəncədən gəlirəm, sözə bənd olub,
Gəncənin meyvəsi şəkər, qənd olub.
Gəncədə bir qıza gözüm bənd olub,
Cavada sən baxma, mən baxım deyir!

*Dördüncü iştirakçı səhnəyə yaxınlaşaraq "Leyla" adlı şeirini deməyə başlayır.*

Deyirlər Qarabağ bir cənnət imiş,
Bəslərmiş qoynunda gözəllərini!
Məndə qüdrət yoxdur qələm çalmağa,
Tərif eyləməyə ancaq birini.
O gərgin qaşların kölgəsindəki,
Can alıb, can verən gözlərə qurban
Bugünkü Leylanın xoş səsindəki
Mənalı, mənasız sözlərə qurban!
Qurban qəbul edib töksə qanımı,
Nəyi var şairin, verər canını?!
Qəmzəsi qan olan, gərdişi əla,
Doğrudan gözəldir, göyçəkdir Leyla!
Böylədir önündə hər yeni şair,
Yeni bir yol bular, bir əməl bəslər.
Mənim təbiətdən istəyim budur,

Çoxalsın yurdumda böylə gözəllər!
Könül tazalandı sitayişindən,
Könüllər sultanı, ellər gözəli!
Qorxum var dünyanın bircə işindən,
Mümkünsə dəyişdir qələm-əzəli!
Söylə ki, çiçəklər solmasın, Leyla!
Mənim qorxduğum hal olmasın, Leyla!
Dolansın başına ulduzlar, aylar,
Bu köhnə dünyanın Leylası da var!
Gözəllər toplaşıb olsunlar bacı,
Leyla da onların başının tacı!

*Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Kitabxanada oxucular tərəfindən sevilən və rəğbətlə qarşılanan tədbirlərdən biri də *"xatirə gecəsi*"dir. Tədbir ***"Mən bir müəllim babayam"*** adını daşıyır və şairin müəllimlik etdiyi illərdən , eləcə də müəllimə olan dərin hörmət və ehtiramından söhbət açılır. Bunun üçün kitabxanaçı kitabxanaya yaxın olan məktəbə gəlir və məktəbliləri tədbir haqqında məlumatlandırır.Tədbir zamanı kitabxanaçı ilk olaraq tədbirə yığışan məktəb kollektivini salamlayır və istiqalal şairi Əhməd Cavadın həyat və yaradıcılığından qısa söhbət açdıqdan sonra Əhməd Cavadın müəllimlik ömründən danışır.

*Kitabxanaçı:* Cəmi qırx beş illik (5may 1892, 13 noyabr 1937) ömrünün yarıdan çoxunu, daha dəqiq desək, 24 ilini milli-mədəni şüurumuzun yüksəlməsi yolunda sərf etmiş Əhməd Cavadın ədəbiyyat və mədəniyyət tariximizdəki xidmətlərini onun 24 illik müəllimliyindən ayrı təsəvvür etmək olmaz. Deməli, 37-ci ilin repressiyası həm də müəllimliyi peyğəmbərcəsinə dərk edən, onu ilahi bir məhəbbətlə sevən insanın həyatına qəsd etmişdi.

Çox qəribədir ki, həmişə ondan nə işlə məşğul olduğunu soruşduqda, deyərmiş. Deyərmiş ki, müəllimlik onun ailəsi üçün bir "çörək ağacı"dır. Əhməd Cavad dərs vermiş müəllimlərin şan-şöhrəti respublikamızdan kənarlara yayılmışdı. Onların əksəriyyəti əqidə və məslək adamları idi. Şair müəllimlik sənətini çox yüksək tutur, məktəbə bir məbəd kimi baxırdı. Onun ayrı-ayrı şeirlərində müəllim obrazına müraciət edilmiş, bu obraza müxtəlif yönlərdən işıq tutulmuşdur. Əhməd Cavadın "Müəllim" adlı şeiri sujetli lirikasının yaxşı nümunələrindəndir.

Döşündə üç qızıl medal,
Gözlərində bir general,
Baxışı var, yüksək boylu,
Qalın bığlı, köksü dolu,
Əllərində yun əldivən,
Kimdir bu sallanıb gedən?
Müəllimdir, bu müəllim,
Çox mükəmməl almış təlim.

*On il sonra*

İki medal daha artmış ,
Lakin saç- saqqal ağarmış...
Başı əsir, bel bükülü...
Ah! Ey cavanlığın gülü,
Nə tez soldun, xarab oldun?
Nədir sənin bu tutuğun
Vəfasızlıq yolu bilməm!
Sənin ömrün nə qədər kəm!

*Beş il sonra*

"Ay qardaşlar, verin, verin!
Əvəzini allah versin".
Əlində bir bağlı yaylıq,
Qucağında onbir aylıq
Bir uşağı bir müəllim

Gəzdirərkən, görüb dedim:
-Kimə məxsus bu ianə?
-Qucağımda uyyanə.
Babasını vərəm aldı,
Müəllimdən bir bu qaldı.

Bu şeirdə müəllim ömrünün üç mərhələsi təsvir edilmişdir. Birinci mərhələdə "gözlərində bir general baxışı olan" müəllim öz fəaliyyətinə görə qızıl medal almışdır. O, öz şagirdlərinin təlim-tərbiyəsi yolunda ömrünü şam etmiş, pərvanələr kimi "elm-idrak" uğrunda odlara yanmışdır. İkinci mərhələdə müəllimin 10 il sonra həyatı göstərilir. O, daha iki medal almışdır, lakin bu 10 ildə yüz il qocalmışdır. Şagirdlərin gözlərində şimşəklərə, qığılcımlara dönmüşdür. Özünün isə "saç-saqqalı ağarmış, beli bükülmüş, başı əsməyə" başlamışdır. Daha beş il ötür. Üçüncü mərhələ haqqında söhbət gedən müəllim artıq həyatda yoxdur. O, şam kimi ərimiş, ömrünü ömürlərə calamışdır. Şair bu səhnədə (şeirin finalında) başqa bir müəllimi təsvir edir. Həmin müəllim qucağında bir uşaq ianə toplayır. Əhməd Cavad hələ Gəncə mədrəsisində oxuduğu zaman müəllimləri Hüseyn Cavid kimi böyük mütəfəkkir şair-filosof, Abdulla Sur kimi ilk milli professional tənqidçi və ədəbiyyatşünas məşhur pedaqoq İdris Axundzadə (Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər xanımın əmisi və b. görkəmli şəxsiyyətlər olmuşdur. Türkiyədən Gəncəyə gəlmiş Savad Cavad (Türkiyəli Əhməd Cavadın qardaşı idi. Məlum olduğu kimi, ədəbi aləmdə iki Əhməd Cavad adlı şair vardır. Onlardan biri eyni dövrdə yaşamış bizim haqqında söhbət açdığımız Əhməd Cavaddır ki, o, öz ləqəbini Türkiyəli Əhməd Cavadın adından götürmüşdür. Deyilənə görə, bu iki Əhməd Cavaddan biri öz səsini Azərbaycandan, ikincisi Türkiyədən qaldırmış, oxşar mövzularda şeirlər qoşmuşlar və "kor olsun düşmənimiz" demişlər.) adlı müəllim Cavadın inkişafında böyük rol

oynamışdır. Şeirin qayda-qanunlarını demək olar ki, ona Savad Cavad öyrətmişdir. Adları çəkilən həmin müəllimlər Ə. Cavadın həyat yolu və məfkurəsi, sənətini və peşəsini müəyyənləşdirmişlər. Əhməd Cavadın publisistik məqalələri arasında müəllimlərin həyatına, yaradıcılığına və fəailiyyətinə həsr olunmuşları, həm kəmiyyətcə, həm keyfiyyətcə üstünlük təşkil edir. Onlardan biri də 1919-cu ildə müəllimliyinin 25 illiyi təntənə ilə qeyd edilmiş "Abbaszadə Mirzə Abbasın yubileyi" nə həsr olunmuş məqalədir. Ə.Cavad Gəncədə müəllimlərlə, maariflə bağlı keçirilən bütün tədbirlərdə istisnasız olaraq əsas təşkilatçılardan və məruzəçilərdən biri olurdu. Maraqlı və yadda qalanı burası idi ki, onun hazırladığı məruzələr xalq tərəfindən ilk dəfə eşidilirdi. Çünki cəfakeş, müdrik şair Ə.Cavad bütün məlumatları ilk mənbələrdən alırdı. Bu məlumatlardan aydın olur ki, o, 1919-cu ildə Gəncəyə gələnə qədər Mirzə Abbas Şimali Qafqazda bir oğlan, bir qız məktəbi açmışdır. Gəncəyə gələndən sonra oradakı qız məktəbində türk dili müəllimi təyin olunmuşdur. Onun inqilaba qədərki pedoqoji işi Azərbaycan Demokratik Respublikasının yaranması, inkişafı və mədəniyyətinin, maarifin tərəqqisi ilə bağlı idi. Böyük şair Ə.Cavadın müəllimlik və pedoqoji fəaliyyətinin ikinci mərhələsi inqilabdan sonrakı illərə təsadüf edir. Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk çağlarında onu Quba qəzasına göndərirlər. O, 1920-ci il avqustun 20-dən 1922-ci il sentyabr ayının 1-nə kimi Quba qəzasında türk dili və ədəbiyyatı müəllimi, Azərbaycan maarif komissarlığının təşkil etdiyi qısa pedoqoji kurslarda mühazirəçi, Qusarda, sonra Xuluqda və s. kəndlərdə məktəb direktoru, bir müddət Quba qəzasının maarif şöbə müdiri, yoxlama komissiyasının üzvü və başqa vəzifələrdə çalışmışdır. Cümhuriyyət şairi Əhməd Cavadın həyatının və fəaliyyətinin ən mühüm dönüş xətləri onun müəllimliyi ilə bağlıdır. O, "Mən bir müəllim babayam" deməyi çox xoşlardı,

evdə ailə üzvləri, kənddə həmyerliləri də ona belə baxardılar. Hətta o, 1925-ci ildə 2-ci dəfə həbs ediləndə ("Göy-göl" şeirinə görə) anası Yaxşı arvad o dövrün vəzifəli bir şəxsinə müraciətlə: "Oğul, özün bilirsən Əhməd Cavad bir müəllim babadır, o, Sovet hökumətinə nə edə bilər, qoşunu yox, topu yox, tüfəngi yox..." demişdir. Buradakı "müəllim baba" xalqın böyük şairə verdiyi ən şərəfli adlardan biri idi. Qəribə burası idi ki, onun taleyini də elə "müəllimliyi" həll etmişdir.

Böyük vətənpərvər şair Əhməd Cavad 1935-ci ildə Bakıya qayıdır, Azərbaycan Dövlət Nəşriyyatında tərcümə şöbəsinə işə dəvət olunur. 1935-1937- ci illərdə Azərbaycan qadınının inkişaf yoluna həsr edilmiş "Sədəf" adlı romanını yazıb bitirir, müzakirəyə təqdim edir. Eyni zamanda müəllimlik sənətini də davam etdirir. Onun sonuncu tərcüməsi Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsəridir. Onun ömrü 1937- ci ildə 45 yaşında vaxtsız qırıldı, şairin rübabı, könül sazı sındırıldı, əlyazmaları talan edildi... Bu nəhəng təfəkkür bahadırının həyat və fəaliyyəti, o cümlədən maarif sahəsindəki xidmətləri geniş tədqiq olunub bu günkü və gələçək nəsillərə çatdırılmalıdır.

*Xatirə gecəsinin sonunda Kitabxanaçı adı gedən məktəbin şagirdləri arasında "Sorğu-sual" keçirir. Bu unudulmaz şair Əhməd Cavadın oxucuların yaddaşında daha dərindən həkk olunması və onlarda şairə qarşı xüsusi bir sevginin tərənnümünə xidmət edir. Kitabxanaçı iştirakçılara əvvəlcədən təşəkkür edib, uğur dilədikdən sonra sorğu vərəqlərini təqdim edir. Uşaqlar əvvəlcə ayağa qalxaraq Azərbaycan Respublikasının dövlət himnini oxumağa başlayırlar.*

1. Azərbaycan Respublikasının dövlət himninin sözləri kimə məxsusdur?
   a. Səməd Vurğun.
   b. Nizami Gəncəvi.

c. Əhməd Cavad.

2. Əhməd Cavadın ilk kitabının adı nədir?
   a. “Qoşma”.
   b. “Dalğa”.
   c. “Dan ulduzu”.

3. Nöqtələrin yerini doldurun!

Kəsin eyşi-nuşi, gələnlər, susun!
Dumandan yorğanı, döşəyi yosun.
Bir yorğun pəri var: bir az uyusun,
Uyusun dağların maralı ...........

a.“Azərbaycan Bayrağına”.
b.“Göy göl”.
c.“Qızıma”.

3. Misranın davamını yazın. “Sən olasan gülüstan......”
   a. Namusunu hifz etməyə.
   b. Sənə hər an can qurban.
   c. Məsud yaşa.

4. Əhməd Cavad Azərbaycanın hansı şəhərində doğulmuşdur?
   a. Naxçıvan.
   b. Bakı.
   c. Gəncə.

5. Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq, Sultan Məcid Qənizadə, Hənəfi Zeynallı, bu şair və yazıçıları bir-birinə bağlayan nədir? Nəyə görə onların adları çox zaman birgə çəkilir?
   a. Çoxlu sayda kitabları olduqları üçün.
   b. Repressiya qurbanı olduqları üçün, acı taeyi birgə yaşadıqları üçün.
   c. Bir məktəbdə oxuduqları üçün.

6. Aşağıdakı fikirlərin hansı böyük şair Əhməd Cavada xas xüsusiyyətdir?
   a. Məğrur, istedadlı, dönməz və istiqlalçı.

b. Tərcüməçi, tarixçi, filosof.
c. Müəllim, şair, musiqiçi.

7. Şairin ən çox sevdiniz şeiri hansıdır?
8. Əhməd Cavadı bir cümlə ilə necə tərənnüm edərdiniz?
9. "Salam Türkün bayrağına" bu sözlər sizdə hansı hislər oyadır?
10. Bayrağımız haqqında nə deyə bilərsiniz?
11. "Bayrağıma xain baxan
Xain gözə mən tikanam..." bu şeir hansı ruhda yazılmışdır?
a. Vətənpərvərlik.
b. döyüş.
c. təbiətə tərənnüm.
12. İstiqlal şairi, azadlıq aşiqi Əhməd Cavaddan bu günümüzə yadigar qalan nələrdir?
a. Onun çəkdiyi rəsm əsərləri.
b. Onun şeirləri, bütövlükdə əsərləri.
c. Topladığı marka və nişanlar.

***Cavablar:***1 c; 2 a; 3 b; 4 c; 5 b; 6 a; 7....; 8. İstiqlal şairi. İstedadlı şair. Vətən mücahidi. Himnimizi yazan şair. Unudulmaz şair və s; 9......; 10....; 11.a; 12. b.

Böyük şair Əhməd Cavad vətənə, xalqa, torpağa bağlı biri idi. O, vətənin gələcəyini yaxşı təhsil və tərbiyə olunmuş uşaqlarda görür. İstər müəllimlik, istərsə də poetik yaradıcılığıyla uşaqlara dəstək, təkan olmuş, onları uğura səsləmişdir. Bu münasibətlə bağçada Əhməd Cavadın xatirəsinə uyğun olaraq azyaşlı uşaqlar arasında ***"Balalarıma"*** adlı tədbir keçirilə bilər. Kitabxanaçı ilk olaraq uşaqlara Əhməd Cavad haqqında çox sadə və anlaşılır dildə məlumat verməzdən əvvəl balalara üz tutaraq onlara xitabən "Dan ulduzu" şeirini deyir.

Bu qaranlıq gecə nə qədər sürdü?
Yetiş imdadıma ey Dan ulduzu!..
Gözlərim yolunda, üzüm haqdadı,
Aman, sən yox demə, ey Dan ulduzu!

*Kitabxanaçı:* Əziz balalar, sevimli və unudulmaz şairimiz Əhməd Cavad gözəl-gözəl şeirlərin, poemaların, onlarca publisist məqalələrin və nəsr əsərlərinin müəllifidir. Dünya ədəbiyyatından tərcümə etdiyi "Qarqantüa-Pantaqreal" indi də azyaşlı uşaqların stolustü kitabıdır. O, rus ədəbiyyatından bir sıra şeir və nəsr əsərlərini dilimizə çevirmiş, onlarca kitabların redaktoru olmuşdur. Əhməd Cavad yaradıcılığının ilk illərindən azyaşlı və məktəbyaşlı uşaqlar üçün gözəl əsərlər yazmışdır. "Balalarıma" adlı şeir uşaqlara xitabən yazılmışdır. Qədim bayatılarımızdan gələn həzinlik və şirinlik burda müasir məqsədə-uşaqlara Vətən məhəbbəti, vətən sevgisi aşılamaq niyyətinə xidmət edir. Şairin başqa şeirlərindən isə uşaqlara əməksevərlik, torpağa və zəhmətə səsləyən hisslər aşılanır. Bu şeirlərdə tamam başqa bir ruh var. İstiqbal şairinin sözü də, söhbəti də başqalaşır, incə yumşaq xarakter alır. O, uşaq şeirlərində sadəlövhdür, söhbətçildir. Şairin dili sadədir, misralarda ağırlıq qətiyyən yoxdur. Uşaqlarla mehribandır, səmimi və şirindillidir, Əhməd Cavad. Əhməd Cavad uzun müddət respublikamızın ayrı-ayrı rayonlarında müəllimlik etmişdir. Odur ki, şairin yaradıcılığında gənc nəslin təlim-tərbiyəsi və sağlamlığı ilə əlaqədar problemlər həmişə xüsusi yer tutmuşdur. Şair Rus-türk müharibəsi zamanı kimsəsiz uşaqların arxaya-Azərbaycana uşaq evlərinə və məktəblərə oxumağa göndərilməsində əlindən gələni əsirgəməyib. Gəlin uşaqsevər şairin sizlər üçün yazdığı şeirləri dinləyək.

*Uşaqlar bir-bir səhnəyə yaxınlaşıb şeirləri deməyə başlayırlar. İlk iştirakçı xoruz geyimi ilə səhnəyə yaxınlaşıb "Quk-Qulu-Qu" şeirini deyir.*

İlk işıqla xoruz ötər,
Bizə der ki, uyğu yetər!

Tənbəlləri sevməm əsla,
Haydı gedək iş başına!
Rəncbər qeyrə yollanmalı,
Çapa sapan qollanmalı.
Əkmək lazım buğda, arpa,
Dünya istər səndən qida.
Quk-qulu-qu, quk-qulu-qu!
Səhər oldu yetər uyğu!
Zərif cocuk, xoruz dinlə,
Nə xoş ötər, nə şən ötər.
Başla, xeyir dərslərinə,
Tənbəl olma uyğu yetər.
Quk-qulu-qu, quk-qulu-qu!
Gün uyğusu, fəna uyğu!

*İlk iştirakçı şeirini bitirir və ikinci iştirakçı səhnəyə daxil olub üzünü xoruza ( ilk iştirakçıya) tutaraq:*

Toyuqların xoruzsuz,
Dərdinə qalmaq gərək.
Bir kilo buğda verib,
Bir xoruz almaq gərək.
Qışda soyuq güc eylər,
Quyuya salmaq gərək,
Sabah desin quk-qulu-qu
Qalmasın səndə yuxu.

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşaraq iştirakçılara (xoruza və toyuğa) üzünü tutub deyir:*

Mən Tuğayam, bir quşam
Oynayıb yorulmuşam.
İstəməm yorğan-döşək,
Anamın qoynu göyçək.
Baxım onun gözünə,
Qulaq verim sözünə

Mənə versin ağılı-
Çox söyləsin nağılı.

*Tədbirin sonunda uşaqlar şeirdə adı çəkilən personajların şəklini çəkərək tədbirdə nümayiş etdirirlər. Bütün uşaqlar, eləcə də iştirakçılar müxtəlif hədiyyələrlə mükafatlandırılır.*

Kitabxanada şairdən bəhs edən müxtəlif tədbirlər və eləcə də ədəbi-bədii gecə keçirilir. Unudulmaz şair Əhməd Cavadın xatirəsinə həsr olunmuş ***"Yaralıdır könlüm quşu, yaralı, Yaralandı yazıq şair olalı..."*** adlı ədəbi-bədii gecəyə Azərbaycanın gorkəmli ədibləri, sənət-söz adamları, oxucular, ali məktəb tələbələri, məktəblilər dəvət olunur. Qonaqlar şairin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Şairin kitablarından ibarət kitab sərgisi qonaqlar tərəfindən rəğbətlə qarşılanır. Gecənin qonaqları ilk öncə "Əhməd Cavad haqqında hazırlanmış veriliş" in slaydına baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnədə öz yerini alır. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürünü bildirirlər.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, bu il böyük maarifçi, bənzərsiz pedaqoq, ədəbiyyat fədaisi, tərcüməçi, şair Əhməd Cavadın anadan olmasının 125 illiyi tamam olur. Bu münasibətilə buraya yığışmışıq. Əhməd Cavad həyatın bütün səslərinə, bütün çağırışlarına cavab verən əsil şairdir. O, ahəngini Azərbaycanın dahi şairlərinin ahəngindən götürmüş bir şairdir. Əhməd Cavad yaradıcılığı simvolik, romantik, bədbin, nikbin, fərdi və içtimai hislərin ifadəsi baxımından əlvan bir mozaikanı xatırladır. Bu mozaikada istər klassik örnəklərin, istərsə müasir poeziya anlamının qəribə bir vəhdəti dayanır. Görkəmli şair, alovlu publisistik və içtimai xadim Əhməd Cavad əsrimizin 10-cu illərindən başlayaraq dirçəlməkdə olan maarif

və mədəniyyətimizin fədailərindən olmuşdur. O, dahi bəstəkarımız Üzeyir Hacıbəyovla birlikdə Azərbaycan demokratik Cümhuriyyətinin dövlət himninin müəllifidir.

*II aparıcı:* 1919-cu ildə iki hürriyyət aşiqi, xalqının iki böyük oğlu Üzeyir Hacıbəyovla Əhməd Cavad Azərbaycan Xalq Cümhuriyyətinin himnini yazmaq qərarına gəlirlər. Və çox keçmədən Azərbaycan parlamentində sözləri Ə.Cavadın, musiqisi Üzeyir bəyin olan dövlət himni səslənir. Səksən illik ayrılıqdan sonra həmin əzəmətli himni bu gün biz də oxuya bilirik. Ən şərəflisi isə budur ki, uzun illər yasaq edilmiş, zülümlərə məruz qalmış, böyük şəxsiyyətlərimizin yaratdığı himn bu gün müstəqil Azərbaycan dövlətinin himni kimi dünyanın böyük salonlarında, idman meydanlarında, beynəlxalq təşkilatların toplantılarında səslənir. İsdtiqlal şairi Əhməd Cavadın sözlərini yazdığı, misilsiz bəstəkar Üzeyir bəyin bəstələdiyi “Azərbaycan marşı” bu baxımdan əvəzedilməz sənət əsəridir. Həmin marşın himn kimi qəbulu qənaətinin doğruluğunu tarix və zaman təsdiqlədi.

*I aparıcı:* 27.05. 1992-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə musiqisi Üzeyir Hacıbəyovun, mətni Əhməd Cavadın “Azərbaycan marşı” Azərbaycan Respublikasının Dövlət himni kimi təsdiq olundu.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!

Hüququndan keçən əsgər!
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

*II aparıcı:* Ulu öndər, möhtərəm Heydər Əliyev dövlət himnimizin məziyyətlərindən danışarkən deyir: "Mən bu gün bildirmək istəyirəm ki, 1918-1920-ci illərdə Azərbaycanda hakimiyyətdə olmuş Xalq Cümhuriyyətinin bugünkü nəsillərə qoyub getdiyi ən dəyərli miraslardan biri Azərbaycanın bu gün biz qəbul etdiyimiz qanunla istifadə etdiyimiz dövlət himnidir və bir də Azərbaycan dövlət bayrağıdır."

*I aparıcı:* İstiqlalın bir atributu da ordumuz idi. Onun istər şəhidlərimizə, istər əsgərlərimizə qoşduğu şeirlərində bu əsas yer tuturdu. Ə.Cavadın "Ölkəm" adlandırdığı "Gerbimizə ithaf edirəm"-deyə qoşduğu şeirində də, istiqlal ruhu çox güclüdür:

Üçrəngli bayrağım, üçrəngli Gerbim,
Ahəngli bayrağım, ahəngli Gerbim;
Göy, yaşıl, qırmızı çələngi Gerbim,-
Adım, nişanımdır, tək Gerbim deyil,
Arzum, mübarizəm, tək hərbim deyil,
Məsləkim, əqidəm-tək təbim deyil,
Sökülən Dan yeri, Gündüzlər ölkəm!

Şair istiqlalı bax beləcə təsəvvür edir, o mahiyyətdə də oxucularına çatdırırdı.
*II aparıcı:* Əhməd Cavad yaradıcılığında Azərbaycan, Qafqaz, Türk dünyası obrazları çox qabarıq verilmişdir. Onun hər şeiri, hər misrası sanki yurdumuzun bir parçasıdır. Onlar ilk sözündən oxucunu məftun edir, onun ürəyini ələ alır, bircə-bircə tariximizi, coğrafiyamızı nişan verir.

*II aparıcı:* Əsl istiqlal fədaisi, cümhuriyyətin əvəzsiz tərənnümçüsü Əhməd Cavad öz sözü, öz dəsti-xətti, öz üslubu olan el-oba vurğunu idi. Onun yaradıcılığında, Türkiyə, Azərbaycan, qədim Gəncə, dağlar gözəli Göy göl və elimizin digər əsrarəngiz guşələri canlı obrazlar səviyyəsinə yüksəlmişdir. Məsələn:

Dumanlı dağların yaşıl qoynunda
Bulmuş gözəlliklə kamalı Göy göl.
Yaşıl kəmənbəndi gözəl boynunda
Əks etmiş dağların camalı Göy göl.
Kəsin eyşi-nuşi, gələnlər, susun,
Dumandan yorğanı, döşəyi yosun.
Bir yorğun pəri var, bir az uyusun,
Uyusun dağların maralı Göy göl...

*I aparıcı:* Əhməd Cavadın yazdığı "Çırpınırdı Qara dəniz" isə az qala milli himn qədər kütləvi şəkildə oxunulan və sevilən bir əsərə çevrilmişdir:

Çırpınırdı Qara dəniz,
Baxıb Türkün bayrağına!
"Ah!..." deyərdim, heç ölməzdim
Düşə bilsəm ayağına.

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!

İncilər tök, gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər.
Olsun turan bütün ellər
Qurban Türkün bayrağına!
Yol ver Türkün bayrağına!!!

II aparıcı: Yaradıcılığının elə ilk nümunələrindən söz sərrafı olan, ədəbi-elmi fikir adamlarının diqqətini cəlb edən Əhməd Cavad tezliklə istedadlı şair, alovlu vətəndaş, içtimai xadim, xeyirxah və təşəbbüskeş insan kimi məhşurlaşaraq milyonların qəlbində özünüzə yer tapmışdır. Əbədi və içtimai fəaliyyəti haqqında dövrünün tanınmış şəxsiyyətlərinin təqdir və rəğbət dolu fikir və mülahizələrini eşidərək xoş və şirin duyğular səltənətinin kəhkəşanında poeziyasının romantik köhlənini çapmaq səadəti ona nəsib olsa da, tezliklə Əhməd Cavadın başı üstündə qara buludlar oynamış və onun haqqında ya heç danışılmamış, ya da qərəz və iftira dolu sözlər söylənmiş, yazılar çap edilmişdir. Azərbaycanın böyük şairi, publisist, maarifçi, əvəzsiz tərçüməçi və gözəl insan olan Əhməd Cavad Axundzadə yaradıcılığının müdrikləşən və çiçəkləyən, ən parlaq dövründə repressiya illərinin qurbanı olmuş, 1937-ci il noyabr ayının 13-də 45 yaşında günahsızcasına qətlə

yetirilmişdir. Şairin özünün və ailəsinin başına gətirilən müsibətlər olduqca ürək ağrıdıcıdır.

I aparıcı: Əhməd Cavad bir şair kimi öz ədəbi yolunu belə müəyyənləşdirmişdir:

Mən çeynənən bir ölkənin
Haqq bağıran səsiyəm!

Əhməd Cavad, sən elə bir şeirsən ki, sevməyənlər anlamaz. Sən qalibsən, səni qalib edən isə şeirlərindir... Ə.Cavad unudulmazdır. Üç rəngli bayrağımız kimi, Azərbaycan Demokratik Respublikamız kimi, Ay-ulduz kimi, Göy gölümüz, Kürümüz, Arazımız, Gəncəmiz, Bakımız kimi şeirimiz, nağıllarımız, dastanlarımız, havamız, suyumuz kimi, həyatımız kimi...

Eşqindən güc alıb bu ilhamım da,
Duyğular qəlbimdə sellərə dönür!
Ellərin verdiyi arzu-kamım da
Yenidən baş alıb ellərə dönür!
Nə böyük bir qüdrət varmış sənətdə,
Ömürlük bağlıdır söz də, söhbət də;
Çəkilən əzab da, iş də, zəhmət də
Çiçəklərə dönür, güllərə dönür!
Fikirlər içində fikrim var deyə,
Tuturam torpaqdan, qalxıram göyə!
Xəyalım uçduqca hey gələcəyə,
Gah da ötüb keçən illərə dönür!

## *Ədəbiyyat siyahısı*

**Əsərləri**

Seçilmiş əsərləri : şeirlər,hekayələr. - Bakı : Şərq-Qərb, 2005. - 296 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunub.

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2006. - 232 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri [Elektron resurs] : poeziya - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. - (Nizami layihəsi). - (qutuda).

Sən olasan gülüstan : Seçilmiş əsərləri. - Bakı : Təhsil, 2012. - 192 s.

***Kitablarda***

Azərbaycan bayrağına : şeir // Azərbaycanın Respublikasının dövlət rəmzləri. - Bakı : Çaşıoğlu, 2010. - S. 249.

Azərbaycan marşı // Azərbaycan Respublikasının dövlət rəmzləri. - Bakı : Çaşıoğlu, 2010. - S. 248.

Beşik ; Balalarıma ; Mən Tuqayam : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə.– Bakı : Öndər, 2004. - C.2. - S. 64-66.

Bismillah ; Röyasını görmüşdüm ; Milli bayrağımıza! və b. : şeirlər // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. - Bakı : Elm, 2003. - S. 161-182. - Kitaba həmçinin, "Ey əsgər" ;"Gəlmə" ; "Bakı deyir ki" ; "Bir yıl əvvəl" adlı şeirləri və məqalələri də daxil edilmişdir.

Can, Azərbaycan : şeir // Azərbaycan Respublikasının dövlət rəmzləri. - Bakı : Çaşıoğlu, 2010. - S. 250-251.

Çırpınırdı Qara dəniz : şeir // Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). - Bakı : Qismət, 2008. - S. 289. - Üzeyir Hacıbəyov bu şeirə musiqi bəstələmişdir.

Ey əsgər : şeir // Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). - Bakı : Qismət, 2008. - S. 105.

Nə yazım ; Nə üçündür ; Kölgəm ilə mən və b. : şeirlər // XX əsr Azərbaycan poeziyası antologiyası : 1920-ci illərin poeziyası. - Bakı : Elm, 2009. - I kitab - S. 148-164.

Şəhidlərə ; Al bayrağa ; Azərbaycan bayrağına ; Qardaş ; Göy göl // El bilir ki, sən mənimsən : şeirlər. - Bakı : Təhsil, 2013. – S.27-31. - (Məktəb kitabxanası).

Şəhidlərə = Sarmaşıqlı məzar : Azərbaycandakı Osmanlı şəhidlərinə // Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918). - Bakı : Qismət, 2008. - S. 155.

**Dövri mətbuatda**

Ana : şeir : Gəncə, 14 mart 1914 // İşıq. - 2012. - № 1. - S. 53.

Azərbaycan bayrağına : şeir // Füyuzat. - 2008. - № 3(41) . - S. 5.

Azərbaycan Xalq Cümhuriyyətinin Milli Bayrağı : şeir // Respublika. - 2010. - 11 noyabr. - № 247. - S. 6.

Balalarıma : şeir // Savalan. - 2014. - 15-21 iyul. - № 53/54. - S. 3.

Göygöl : şeir // Savalan. - 2013. - 14-16 may. - № 33. - S. 2.

Göy-göl ; Sən ağlama ; Azərbaycan bayrağına : şeirlər // Azərbaycan. - 2005. - № 5. - S. 3-4.

Münacat // Füyuzat. - 2015. - № 2. - S. 62.

Nədən yarandın? : şeir // Füyuzat. - 2009. - № 3(47). - S. 5.

Susmaram : şeir // Füyuzat. - 2012. - № 1(63). - S. 31.

Türk ordusuna ; Azərbaycan bayrağına ; Şəhidlərə ; Al bayrağa : şeir // Mədəniyyət. - 2008. - 28 may. - S. 15.

Yazıq : şeir // Füyuzat. - 2014. - № 3. – S.12.

***Haqqında***

***Kitablarda***

**Ələkbərli N.** Üç budaq: Əhməd Cavad, Mikayıl Müşfiq, Almas İldırım. - Bakı : Şirvannəşr, 2007. - 224 s.

**Qurban T.** Məmməd Əmin Rəsulzadə və Azərbaycanda ədəbi proses // Ömür yolları. - Bakı : OL, 2013. - S. 36-52.

**Kənan A.** Azərbaycan himninin müəllifinin faciəsi : Əhməd Cavad // XX əsrdə repressiyaya məruz qalanlar. - Bakı : Azərnəşr, 2011. - S. 7-21.

***Dövri mətbuatda***

**Abbaslı T.** Şəxsi ağrı-əzabları min-min... : milli arzu-əməlləri çin-çin - himn şairimiz Əhməd Cavad // Mədəniyyət. - 2012. - 18 may. - № 35. - S. 13.

**Ağabalayeva S.** Tarixi dəyərləndirmək fürsəti və bir dövlət quracaq milli ruh : şair Əhməd Cavadın Cümhüriyyət dövrü yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 25.

**Anar.** İki şairin acı taleyi : Məhəmməd Hadi (1879-1920) və

Əhməd Cavad (1892-1937) // Ədəbiyyat qəzeti. - 2016. - 24 dekabr. - № 51/52. - S. 4-5.

**Anar.** İki şairin acı taleyi : Məhəmməd Hadi və Əhməd Cavad // Ədəbiyyat qəzeti. - 2010. - 9 sentyabr. - № 36. - S. 4.

**Azərbaycanın istiqlal şairi** Əhməd Cavadın 120 illik yubileyi qeyd edildi // Ədəbiyyat qəzeti. - 2012. - 9 iyun. - № 21. - S. 2.

**Ceyhun.** Əhməd Cavad - istiqlal şairi // Mədəniyyət. - 2012. - 30 noyabr. - № 87. - S. 4.

**Əhməd Cavadın yubileyi** Türkiyədə : Əhməd Cavad - 120 // Ədəbiyyat qəzeti. - 2012. - 19 may. - № 18. - S. 1.

**Əhmədov T.** Baş redaktordan : Azərbaycan Xalq Cümhuriyyəti – 90 // Füyuzat. - 2008. - № 3(41). - S. 2-4.

**Əhmədova G. İ**stiqlal şairi // Mədəniyyət. - 2012. - 21 dekabr. - № 93. - S. 12.

**Fərəcova, Z.** "Qırmızı siyahı" : Əhməd Cavad // El. - 2006. - №4. - S.84-95.

**Hacıbabayev A.** İstiqlal şairinə ehtiram : Əhməd Cavad – 120 // Ədəbiyyat qəzeti. - 2012. - 23 noyabr. - № 43.

**Himnimizin müəllifi ilə** bağlı həqiqət gec-tez öz yerini tutacaq : Tənqidçi İlham Abbasovla şair Sabir Sarvanın "Duel"i // Ulduz. - 2006. - № 1. - S.15-19.

**Xəlilzadə F.** Haqqın səsi : Əhməd Cavad - 120 // Azərbaycan. - 2012. - 6 may. - **№ 99**. - S. 11.

**Xəlilzadə F.** Qara yelin apardığı - Əhməd Cavad : repressiya qurbanları // Azərbaycan. - 2007. - 6 may. - S.8.

**Xəlilzadə F.** Azadlıq aşiqinin ömür yolu : Əhməd Cavadın yaradıcılığı yolu // Azərbaycan. - 2011. - 2 iyul. - № 141. - S. 8.

**Xəlilzadə F.** Haqqın səsi : Əhməd Cavad - 120 // Mədəni həyat. - 2012. - № 10. - S. 44-45.

**İsayev Ə.** İstiqlal şairinin özü və sözü : Əhməd Cavad - 120 // Azərbaycan. - 2012. - 12 aprel. - № 78. - S. 7.

**İsayev Ə.** İstiqlal şairinin özü və sözü : Əhməd Cavad - 120 // Mədəni həyat. - 2012. - № 9. - S. 42 ,43.

**İstiqlal** şairindən xilaskar paşaya hədiyyə : Əhməd Cavadın Nuru paşaya bağışladığı "Qoşma" adlı kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 21 fevral. - **№ 7**. - S. 4.

**Qaliboğlu E.** Repressiya 1937-72-ci illər // Mədəniyyət. - 2009. - 30 oktyabr. - № 79. - S. 7.

**Qurbanov A.** İstiqlal şairimiz : Əhməd Cavad haqqında // Füyuzat. - 2009. - № 4(48). - S. 14-19.

**Maqsudov E.** Azərbaycan Respublikasının Dövlət himninin mətnindən ana dili dərslərində istifadə // Təhsil problemləri. - 2012. - 16-23 iyun. - № 45/46. - S. 11.

**Mustafayeva G.** İstiqlal şairi : Əhməd Cavad - 120 // Ədəbiyyat qəzeti. - 2012. - 18 avqust. - № 31. - S. 5.

**Mustafayeva G.** Qırx beş illik acı ömrün 23 ayı : Əhməd Cavad - 115 // Ədəbiyyat qəzeti. - 2007. - 11 may. - S.3.

**Nizamiqızı H.** Dözümün lal sükutu və ya zəncirlənmiş son ümid : böyük istiqlal şairimiz Əhməd Cavadın ömür-gün yoldaşı Şükriyyə Axundzadə // Mədəniyyət. - 2012. - 3 avqust. - № 56. - S. 11.

**Pərvanə bir ömür** : Rəhman Salmanlının "Əhməd Cavadın yaradıcılıq yolu" adlı kitabı haqqında // Ədəbiyyat qəzeti. - 2012. - 5 may. - № 16. - S. 3-4.

**Salamoğlu T.** "Mən bir kamançayam tellərim inlər..." : Əhməd Cavad romantizmi haqqında // Azərbaycan. - 2012. - № 8. - S.

116-125.

**Salamoğlu T.** Əhməd Cavad poeziyası sovet rejiminin ilk illərində : Əhməd Cavad - 120 // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 2. - S. 20-34. - Biblioqr. -S.34. - Məqalənin sonunda Azərbaycan, rus və ingilis dillərində xülasə verilmişdir.

**Salamoğlu T.** Haqqı özünə, yaradıcılığı xalqa qaytarılan sənətkar : Əhməd Cavad - 115 // Təhsil problemləri. - 2007. - 1-10 iyun. - S.14. ; Xalq qəzeti. - 2007. - 2 may. - S.7.

**Salmanlı R.** Cümhuriyyət şairi : Azərbaycan Xalq Cümhuriyyəti - 90 : Əhməd Cavad // Azərbaycan. - 2008. - 25 may. - S. 5.

**Salmanlı R.** İstiqlal şairi : Əhməd Cavad - 120 // Azərbaycan. - 2012. - 6 may. - № 99. - S. 11.

**Sərvi S.** "Ah" - deyərdim, heç ölməzdim... : Əhməd Cavad haqqında // El. - 2011. - № 5. - S. 20-30.

**Şərifli B.** Gecə yarısı döyülən qapılar... : repressiya qurbanları // Azərbaycan : qəzet. - 2015. - 15 sentyabr. - № 201. - S. 7.

**Tağıyev E.** Azadlıq nəğməkarı : Əhməd Cavad - 120 // Mədəni həyat. - 2012. - № **7**. - S. 17.

**Yıldırım İ.** İstanbuldan : Ahmet Cevatın kendi el yazısı 1 Mayıs 1918 de Alibey Hüseyinzadeye takdim ettiği "Çırpınırdın Karadeniz" şiiri // Ədəbiyyat qəzeti. - 2016. - 20 fevral. **- № 7.** - S. 3.

***Həsr olunmuş şeirlər***

**Nəzmi Ə.** Əhməd Cavad dünyası : poema. - Bakı : Nurlan, 2006. - 160 s.

**Rüstəmxanlı S.** Yurdun bayrağına : şeir Əhməd Cavada həsr olunur // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S. 185.

# **Şanlı vətənin qəhrəman övladı Əhməd Cavad**

## **(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:10.04.2017
Tirajı:100
Pulsuz